# O DOĞMA, O GÖZƏL ZAQATALA...

**Turizm əvvəllər ölkənin şimal-qərb bölgəsində əsasən yay fəsli üçün xarakterik sayılırdı. Daha çox İsmayıllının, Qəbələnin, Şəkinin, Qaxın və Zaqatalanın təbiət mənzərələri cəlbedici olan sərin dağ yerləri seçilirdi. Qədim Şəki istisna olmaqla digər bölgələrdə isə xarici turizmin reallaşması 3-5 faizi ötmürdü. Ancan son onilliklərin misilsiz uğurları, regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramlarının uğurlu icrası istər daxili, istərsə xarici turizmin formalaşmasını infrastruktur paralelliyi üzərində müasirləşdirərək bölgənin bu istiqamətdə də yüksəlişinə təminat yaratdı.**



Şəki sözsüz ki, ölkə turizminin brendi sayılır. Sevindirici haldır ki, bölgənin digər şəhər və rayonları da bu istiqamətdə sürətli inkişafdadır. Söhbətimiz bu yerlərin gözəllik simvolu sayılan Zaqatala rayonu haqqındadır.

Mən Zaqatala rayonu haqqında çox söhbətlər açmışam, müxtəlif yazılar qələmə almışam. Hətta üstündən 20 ildən də artıq vaxt keçməsinə baxmayaraq, "Kiçik Parisin sirləri" adlı irihəcmli məqaləmi bir müəllif kimi indinin özündə də mənə xatırladır və təşəkkür edirlər. Dostlar, ziyalı insanlar unutmurlar bu gözəl rayon haqqında yazılan duyğusal, səmimi yazıları. Zaqatalaya "Kiçik Paris", "Bala Tiflis" deyibən oxşatmaların zərurəti faktik müqayisələrə söykənmir. Bu şəhərdə təbii ki, Notur-dam, Luvr, Sen-Jermen, Eyfel və ya Şeytanbazar... yoxdur, heç oxşarlarını da axtara bilmirsən. Sadəcə insanlar sözün əsl mənasında mədəni həyat tərzi baxımından "Kiçik Paris", geyim və məişət oxşarlığından isə "Bala Tiflis" ifadələrini müəyyən məqamlarda dilə gətirərkən səmimi hislərini bürüzə veriblər. Hələ bir nəzərə alsaq ki, buralarda gürcü əsilli ingiloylar da yaşayır və həm də Zaqatala qonşu Gürcüstanın, eləcə Tiflisin də çox yaxınlığındadır.

Gizlətmirəm, mən bütün bunları bilə-bilə, bütün bu deyilənlərlə müəyyən qədər razılaşa-razılaşa, hətta yazılarımda xatırlada-xatırlada, Zaqatalanı heç vaxt nə Parisə, nə də Tiflisə birbaşa oxşada bilməmişəm. Vətənimin bu gözəl rayonu, gözəl Zaqatala şəhərini, onun insanlarını və təbiətini çox sevmişəm və sevəcəyəm də. Mən onu ilk görəndən yalnız bircə şəhərə oxşatmışam və heç vaxt da bunu yazmamışam.



...Görəsən, dənizi olmayan şəhərlərin də yuxularında dəniz ləpələnirmi?

Bilirsiniz ki, Zaqatala ölkənin şimal-qərb bölgəsinin ən abad və daim inkişafda olan rayonlarından biridir. Burada 130 min nəfərə yaxın əhali yaşayır. Rayonun Zaqatala şəhərindən başqa 10 min nəfərdən çox sakini olan Əliabad qəsəbəsi və 59 kəndi var. Zaqatala rayonu özünün təbiət gözəllikləri ilə, Zaqatala Dövlət Qoruğu ilə, qiymətli meyvələri və bitkiləri ilə, məşhur Qalası ilə ("Yenilməz batalyon" filmini xatırlayaq), həm də yaraşıqlı binaları ilə daim inkişafda olan qızıl gül ətirli Zaqatala şəhəri ilə məşhurdur. Rayonda bir çox zavod və fabrik fəaliyyət göstərsə də iqtisadiyyatın əsasını kənd təsərrüfatı müəyyənləşdirir. Xüsusilə də əkinçilik, bağçılıq və maldarlıq. Zaqatala fındığı və tütünü dünyada tanınan, qəbul olunan məhsullardır.




Son illər istər şəhərdəki tikinti-quruculuq işləri, sənaye müəssisələrinin fəaliyyəti, xidmət sahələrinin inkişafı, istərsə də aqrar sahədəki uğurları zaqatalalıları daha böyük nailiyyətlərə ruhlandırır. Rayon rəhbərliyi, təcrübəli icra başçısı Mübariz Əhmədzadə camaatla əl-ələ verərək Zaqatalanı ən optimal perspektivlə irəli aparırlar. Rayon sakinləri öz başçılarını çox sevir, ona inanır və etibar edirlər. Əhmədzadə bu etimadı xalqına, dövlətinə və prezidentinə layiq fəaliyyəti və sədaqəti ilə qazanmışdır.

Rayonda "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın tələblərindən irəli gələn vəzifələrin icrası istiqamətində xeyli işlər görülmüş və bu tədbirlər davam etməkdədir. Ötən dövr ərzində rayon mərkəzi ilə bütün yaşayış məntəqələrində genişmiqyaslı tikinti-abadlıq və quruculuq işləri aparılmışdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Zaqatalaya hər bir səfəri rayonda yüksək əhval-ruhiyyə yaradır. Ölkə başçısı yeni tikilmiş müəssisələrin və digər obyektlərin təntənəli açılışını edir, iştirak etdiyi digər tədbirlərdə də zaqatalalılara öz xeyir-duasını verərək bütün quruculuq işlərində onlara uğurlar arzulayır.

Rayonda aqrar sahə yeni inişaf mərhələsindədir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə kənd təsərrüfatı istehsalçılarına dövlət tərəfindən büdcə vəsaiti ilə yardımların edilməsi, güzəştli kreditlərin verilməsi kənd təsərrüfatı məhsullarının istehsalının artmasına şərait yaratmışdır.

Rayonda meyvə bağlarının artması və becərilməsi işləri davam etdirilmiş, sahələr əvvəlki illərdəkindən xeyli artmışdır. Heyvandarlığın inkişaf etdirilməsi və mal-qaranın cins tərkibin yaxşılaşdırılması məqsədilə son illərdə yaradılmış camışçılıq, maldarlıq və qoyunçuluq özəl damazlıq təsərrüfatları və dövlət damazlıq müəssisəsi fəaliyyətlərini genişləndirmişlər.

Zaqatala şəhərinin su təchizatının və kanalizasiya sisteminin yenidən qurulması, yeni idman sağlamlıq komplekslərinin inşası, məktəb binalarının tikintisi ilə yanaşı, təhsil müəssisələrinin əsaslı təmiri, səhiyyə müəssisələrinin yenidən qurulması, avadanlıqlarla təchiz edilməsi, mədəniyyət obyektlərinin təmir və tikintisi, tarix-mədəniyyət abidələrinin bərpası, rayon ərazisində meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsi və digər mühüm işlər planauyğun şəkildə davam edərək gələcək üçün nikbinlik yaratmışdır. Şəhərdaxili və rayon ərazisindəki yolların abadlaşdırılması, yeni meşə massivlərinin salınması, mövcud meşələrin qorunması və bərpası işləri də arzuolunan səviyyədə qurulmuşdur. Axı bu gözəl məkan respublikamızın əsas turizm mərkəzlərindən biridir. Bu səbəbdən də mövcud infrasrukturların inkişafı və müasirləşdirilməsi, yeni qurğuların tikilib istifadəyə verilməsi qarşıda duran vəzifələrdəndir. Bu istiqamətdəki söhbətimiz zamanı Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə deyir:



- Zaqatala onsuz da qonaq-qaralı yerdir. Burada turizm üçün də hər cür şərait və bu şəraiti genişləndirmək perspektivləri var. Məsələyə çox ciddi yanaşırıq. Çünki turizm qeyri-istehsal sahələrindən biri kimi yaxşı gəlir gətirə bilir. Təbii ki, bütün infrastrukturlar, xidmət mədəniyyəti və digər amillər yüksək səviyyədə qurulduqda. Regionda turizmin inkişafı rayonumuz, camaatımız üçün əlavə gəlir mənbəyidir. Bu səbəbdən bütün imkanlardan maksimum istifadə etməyə çalışırıq. Məsələn, elə bu ilin fevral ayından daxili və xarici turistlərin qəbulu, onlara yüksək səviyyəli xidmət göstərilməsinə ciddi hazırlıq işləri görülüb. Otellər, istirahət mərkəzləri, restoran və kafelər, rabitə, səhiyyə, digər xidmət strulkturları məlumatlandırılıb. Rayonun mədəniyyət və turizm, bədən tərbiyəsi və gənclər təşkilatı, internet klubları, Dövlət qoruğu və başqa təşkilatlar üçün xüsusi iş planları hazırlanaraq bu gün də icra olunmaqdadır...

**Zaqatala turizm sahəsində gerçədən zəngin təcrübəyə malikdir. Gözəl təbiət - dağlar, meşələr, çaylar, gül-çiçəkli düzənlər, yaraşıqlı şəhər, otellər, park və bağlar, idman qurğuları, ləziz yeməklər bişirilən restoran və kafelər və bir də səmimi, mehriban Zaqatala camaatı!**

**Məzahir ƏHMƏDZADƏ**

